Elm .- 2025.- 18 aprel(№13).- S.8.

# Mərkəzi Elmi Kitabxanada respublika elmi konfransı

**23 may 2025-ci il tarixində AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 102 illiyi və MEK-in 100 illiyinə həsr olunmuş ”Kitabxana-informasiya texnologiyalarının inkişafında müasir tendensiyalar” mövzusunda respublika elmi konfransı keçiriləcək.**

Konfransda iştirak etmək istəyən tədqiqatçılar və mütəxəssislər aşağıdakı istiqamətlər üzrə məqalələr təqdim edə bilərlər: Heydər Əliyev və Azərbaycanda kitab mədəniyyəti, rəqəmsal kitabxanaların formalaşdırılması və idarə olunması, elm-kitabxana-cəmiyyət qarşılıqlı əlaqədə, kitabxanalarda istifadəçi təcrübəsinin təkmilləşdirilməsi üçün innovativ yanaşmalar, interaktiv multimedia və rəqəmsal sərgilərin təşkili.

Məqalələr aşağıdakı ünvana göndərilməlidir:

mekkonfrans.az@gmail.com

Konfrans haqqında ətraflı məlumatı bu link vasitəsilə əldə etmək mümkündür:

https://mek.az/konfrans.pdf

Qeyd edək ki, konfrans materialları jurnal şəklində MEK-in rəsmi saytında yerləşdiriləcək və eyni zamanda çap formatında da nəşr olunacaq.